# Uşaqların mənəvi tərbiyəsində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması

**Sevil Cəmilzadə**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun dosenti*

**Rəyçilər:** ped.ü.f.d., dos. P.M. Həsənova,
ped.ü.f.d., dos. S.S. Tağıyeva

**Açar sözlər:** mənəvi tərbiyə, yaş xüsusiyyətləri, fərdi xüsusiyyətlər, şəxsiyyət, fərdi yanaşma prinsipi

**Ключевые слова:** нравственное воспитание, возрастные особенности, личные качества, личность, индивидуальный подход

**Key words:** moral education, age characteristics, personal qualities, personality, individual approach

Uşaqlar bizim gələcəyimizdir. Məhz buna görə uşaqların tərbiyəsi xüsusi diqqət və böyük qayğı tələb edir. Tərbiyə insan cəmiyyətinin yarandığı ilk dövrlərdən meydana gəlmiş, şəxsiyyətin formalaşması prosesi olmuşdur. Tərbiyə bəsləyib yetişdirmə, qidalandırma, böyütmə, alışdırma və vərdiş etdirmək deməkdir. Tərbiyə bütün dövrlərdə hər bir xalqın mənəvi həyatının vacib hadisəsi olmuşdur. İnsan cəmiyyətini tərbiyəsiz təsəvvür etmək olmaz. Onun əsas vəzifəsi – yaşlı nəslin öz həyat təcrübəsi və biliklərini gənc nəsilə ötürməsidir. Tərbiyə insan cəmiyyətinin yaranması ilə təşəkkül tapdığından onunla bərabər inkişaf edir. Ən gədim zamanlarda tərbiyə işi sadə, tərbiyə məsələləri üzrə bilik, bacarıq və baxışlar məhdud olmuşdur. Zaman keçdikcə insanların biliyi və həyat təcrübəsi artır, dünyagörüşü genişlənirdi. Tərbiyə sahəsindəki təcrübə və biliklər də artır, zənginləşirdi.

K.D.Uşinski haqlı olaraq deyirdi ki, tərbiyə xalqın yarandığı tarixdən mövcuddur, onunla bərabər doğulmuş, boy atmış, onun yaxşı və pis cəhətlərini özündə əks etdirmişdir. Xalqın özü tərəfindən yaradılmış, alınmış və xəlqilik əsasında qurulan tərbiyə mücərrəd ideyalar və başqa xalqlardan alınmış ideyalar üzərində qurulmuş ən yaxşı tərbiyə sistemlərində olmayan tərbiyəvi qüvvəyə malik olur. Yalnız xalq tərbiyəsi, xalq inkişafının tarixi prosesində canlı üzvdür. Doğrudan da, yalnız xalq tərəfindən yaradılan, xalq dühasına əsaslanan tərbiyə qiymətləndirilir.

İnsana xas yüksək mənəvi keyfiyyətlərin əsasları hələ uşaqlıq illərindən qoyulur. Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri xalq təhsili sistemində ilkin vasitədir. Hazırda uşaq bağçalarında uşaqların fiziki, əqli, estetik, əxlaq, əmək, vətənpərvərlik tərbiyəsi üzrə məqsədyönlü iş aparılır (2). Bu isə şəxsiyyətin formalaşdırılmasının bütün sonrakı mərhələlərinə güclü təsir göstərir. Uşaqların tərbiyəsində və məktəb təliminə hazırlanmasında uşaq bağçaları mühim rol oynayır.

Azərbaycan müstəqillik əldə etdiyi dövrdən üzü bəri uşaqların əxlaqi cəhətdən daha kamil yetişməsi mühüm əhəmiyyət kəsb edir

Gənc nəslin tərbiyəsi ilə məşğul olan hər kəs öz işini elə qurmalıdır ki, yetişən hər bir uşaq insan əxlaqının bütün tələblərinə cavab verə bilsin. Müşahidələr göstərir ki, uşaq bağçasındakı uşaqlar ilk gündə tərbiyəçiləri özləri üçün nümunə seçir, həyatda hər şeyə öz tərbiyəçilərinin gözü ilə baxır. Tərbiyəçiyə xas olan təvazökarlıq, insanlıq, yoldaşlıq, nəzakətlik, elmi bilik,

bacarıq və s keyfiyyətlər uşaq şəxsiyyətinin formalaşmasına kömək edir.

Hazırda təhsilin başqa sahələrində olduğu kimi, məktəbəqədər sahədə də təlim əməkdaşlığa əsaslanlr. Məktəbəqədər təhsil müəssisəsində təlimin təşkilat forması olan məşğələ qarşılıqlı əməkdaşlıqsız mümkün deyildir. Əməkdaşlığa əsaslanan təlim uşaqlarda məşğələyə maraq oyatmaqla yanaşı, onlar heç bir həyəcan keçirmədən qarşıya qoyulmuş məqsədə nail ola bilir, bir-birləri ilə dil tapa bilirlər.

Tərbiyəçi də məşğələ prosesində uşaqlar arasındakı fərqli cəhətləri nəzərə almalıdır, hər uşaqla onun səviyyəsinə uyğun və qavrama qabiliyyətinə müvafiq dildə danışmalı, ona dərk edə biləcəyi məlumat və bilikləri verməlidir. Əgər təlim-tərbiyənin ilk mərhələlərində uşağın qarşısında çətin və mürəkkəb vəzifələr qoyularsa uşaq da onları dərk etməkdə aciz qalar, onun özünə inamı zəifləyər, elmə olan marağı azalar.

Uşaqların şəxsiyyətindəki fərqlər, daha çox tərbiyə ilə əlaqədar olur. Fərqlərin yaranmasında ailə tərbiyəsi xüsusilə böyük rol oynayır. Bəzi ailələrdə tək uşaq və ya bir neçə qız uşağından sonra doğulan oğlan uşağı ərköyün saxlanır, onun bütün şıltaqlıqlarına dözürlər. Beləliklə, uşaq sonralar uşaq bağçasında öz şıltaqlığını davam etdirir, tərbiyəçi və yoldaşları ilə tez-tez münaqişə edir, evdə heç bir tələbə alışmamış olan bu uşaq verilən tələblərdən də boyun qaçırmağa cəhd edir.

Bəzi uşaqların ailə həyatında atası ilə anası arasında baş verən münaqişələr valideynin öz uşaqlarına qeyri-bərabər münasibət bəsləməsi, ailədə baş vermiş xoşagəlməz hadisələr uşağın əsəbi, həyəcanlı olmasına səbəb olur. Bəzi hallarda isə körpəlik dövründə keçirilən xəstəliklər, xüsusilə əsəb xəstəlikləri uşaqların psixikasında müəyyən izlər buraxır.

Bu hadisələr baş verdiyi şəraitlə fərqləndiyi kimi, uşağın şəxsi xüsusiyyətlərinə görə də çox fərqlənir. Tərbiyə işini təşkil edən, ona rəhbərlik edən hər bir müəllim uşaqlar arasındakı bu fərdi fərqləri və onları törədən səbəbləri bilməli və tərbiyə işində bu fərdi fərqləri hökmən nəzərə almalıdır. Pedaqoji işdən məlumdur ki, bir uşağı intizamlı etmək üçün ona sadəcə nəsihət vermək, pis və ya yaxşısını ona başa salmaq kifayətdir, bəzilərinə isə möhkəm rejim düzəltmək, və bunun yerinə yetirilməsini ondan ardıcıl və qəti tələb etməklə ona təsir göstərmək mümkündür. Bəzi uşaqlara daha çox ürəkləndirmək, həvəsləndirməklə bərabər cəza da tətbiq etmək lazım gəlir. Digərinə təklikdə söhbət zamanı daha tez təsir etmək olur.

Tərbiyəçi-müəllim uşaqların fərdi xüsusiyyətlərini bilməzsə, öz tərbiyəvi təsirlərində bu xüsusiyyətləri nəzərə almazsa, böyük səhvlər edə bilər. Tərbiyənin üsul, vasitələrini seçərkən hökmən hər bir uşagın fərdi xüsusiyyətlərini nəzərdə tutmaq lazımdır. Bu tərbiyə işinin çox mürəkkəb və yaradıcı iş olduğunu göstərdiyi kimi, tərbiyədə heç vaxt hazır göstərişlə, şablonla hərəkət etmək mümkün olmadığını sübut edir.

Tərbiyəçi yenicə təhsil almağa başlayan uşağın zakazını və əqli imkanlarını müəyyən edərək ona, mənimsəyə biləcəyi miqdarda yeni məlumat verməli, onu bu miqdardan artıq yükləməməlidi.

Müəllim əməyinin uğur qazanmasının mühüm şərtlərindən biri uşaqlardan hər birinin fərdi keyfiyyətləri və psixoloji vəziyyəti ilə tanış olmaqdır. Hər bir uşağın onu digərlərindən fərqləndirən fərdi xüsusiyyətləri mövcuddur; onların hər biri eyni hazırlığa meyil və qavrama qabiliyyətinə malik ola bilməz.

Buna görə də uşaqların hamısı ilə eyni metodoloji üslubda rəftar etmək, onların hüquqlarına laqeydlik kimi qiymətləndirilə bilər. Tərbiyəçi daim uşaqların mənimsəmə səviyyələrini nəzarət altında saxlamalı, məsələlərin şərhində ardıcıllıq və tədricilik prinsiplərinə riayət etməlidir. Tərbiyəçi məşğələni yalnız o vaxt qurtara bilər ki, bir neçə dəfə təkrarlamaqla və uşaqlara yoxlama sual verməklə bütün uşaqların və ya onların əksəriyyətinin

artıq bu dərsi mənimsəmiş olduğuna inansın. Tərbiyəçi müəyyən mövzunu tam izah etdikdən sonra bu mövzu ətrafında uşaqlarla sual-cavab keçirməli, onların səhvlərini düzəltməli və əldə edilmiş biliklərin möhkəmləndirilməsinə nail olmalıdır.

Adət tərbiyəsi xüsusən uşaqlıq dövründə böyük yer tutur. Məlum olduğu üzrə, uşaq kiçik yaşlarda onun hərəkətlərində şüurluluq kifayət qədər özünü göstərmir. Beləliklə, uşaq yaşı özü bu dövrdə adətlər yaratmaq üçün geniş imkanlar açır. Uşaq başqalarının hərəkətlərini tez-tez təqlid edir. Bu isə hərəkətin adət şəklinə düşməsinə səbəb olur. Bu imkanlardan səmərəli istifadə etmək tərbiyə işinin müvəffəqiyyətini həll edən mühüm amillərdəndir. Uşaq yaşa dolduqda da adətlər öz əhəmiyyətini itirmir. Adətlər yaşlıların həyatında da böyük rol oynayır.

Adət şəklinə düşməmiş hərəkətlər icraçıdan iradi gərginlik tələb edir. Bu proses həmin hərəkət adət şəklinə düşənə qədər davam edir. Adət yarandıqdan sonra isə həmin hərəkətin icrası həm düşüncəni, həm də iradəni gərginlikdən azad edir. Uşaqda vətənə, xalqa məhəbbət, yüksək nəcib hərəkətlərə hüsn-rəğbət hissi, eləcə də çirkin əməllərə, əxlaqsız hərəkətlərə qarşı nifrət hissini tərbiyə etmək tərbiyəçinin iş prosesində mühüm yer tutmalıdır. Uşaq yaşça nə qədər kiçik olsa da, müəllim, tərbiyəçi ona hörmət etməyə, onun şəxsiyyəti ilə hesablaşmağa borcludur. Uşaq nə qədər intizamsız olub, öz nadinc hərəkətləri ilə müəllim və ya tərbiyəçini incitsə də, onun şəxsiyyətini alçaltmağa yol verməməlidir.

Tərbiyə prosesində uşağın şəxsi xüsusiyyətləri mühüm rol oynadığı kimi onun öz tərbiyəçiləri ilə rəftarından rəhbər tutduğu əxlaq prinsiplərıdə böyük əhəmiyyət daşıyır. Uşağın öz müəlliminə münasibəti ehtiram, minnətdarlıq, təşəkkür üzərində qurulmuşdur. Uşaqların asudə vaxtının təşkilində diqqət yetirilməli cəhətlərdən biri də onun öz dostları və yoldaşları ilə münasibətidir. Əlbəttə, çalışmaq lazımdır ki, dostlarını uşaq özü seçsin. Lakin bu işdə ona kömək etmək, məsləhət vermək, onu düzgün istiqamətləndirmək tərbiyəçinin və ailənin vəzifəsidir. Uşaqları ətraf mühitin pis təsirdən qorumaqla, onları tərbiyəli böyütməklə müəllimlər və valideynlər həm özləri üçün həm də cəmiyyətə tərbiyəli, ləyaqətli, pisi yaxşıdan ayırd edən bir üzv vermiş olur.

**Məqalənin aktuallığı.** Müasir məktəbəqədər təhsilin inkişafında uşaqlara humanist yanaşmanın, onun yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması müasir təhsilin aktual problemlərindəndir.

**Məqalənin elmi yeniliyi.** Uşaqların inkişaf və tərbiyəsində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması tərbiyəçi-müəllimlərdən yüksək peşəkarlıq tələb edir ki, bunu da həyata keçirmək üçün tərbiyəçi-müəllim dərin nəzəri və praktik pedaqoji biliyə malik olmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər müəssisə üzrə mütəxəssislər və tələbələr yararlana bilərlər.

## Ədəbiyyat

1. “Təhsil haqqınd” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. “Azərbaycan Respublikasında məktəbəqədər təhsilin kurikulumu (3-6 yaş)”. “Təhsil problemləri” qəz., 24 mart, 2018
3. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, 2005.
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etni-psixoloji əsasları. Bakı, 2000.
5. http://edu.gov.az/az/page/255/2243
6. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1975.

**С. Джамильзаде**

## Принимая во внимание возраст и личные особенности детей в духовном образовании

### Резюме

Нравственное воспитание играет важную роль в дошкольном образовании, так как нравственное воспитание это совокупность чувств и отношения к себе, другим и окружающему миру. На протяжении жизни ребенка, в разных периодах, это отношение имеет разное значение. Когда ребенок растет и набирает жизненный опыт, его отношение к окружающему миру меняется соответственно его личным качествам. Со временем это отношение становится управляемым.

**S. Jamilzade**

## Taking into account the age and personal characteristics of children in spiritual education

### Summary

Moral education plays more important role in preschool education. As moral education is an aggregate of feelings and relationships of a person towards himself, others and real world. But, in a life of a child, throughout all the periods, those relationships have different importance. As child grows up and his/her life experience increases, he begins to have different attitude towards enter world, according to his/her personal qualities. As time passes, those relationships acquire managerial importance.

**Redaksiyaya daxil olub:** 19.11.2018